**UOT 32**
**https://doi.org/10.59849/2710-0820.2024.1.289**

**Samirə Həbibbəyli**
*Qafqazşünaslıq İnstitutunun*
*Gürcüstanşünaslıq şöbəsinin müdiri*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*
*samira.habibbayli@gmail.com*
*Azərbaycan*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – GÜRCÜSTAN DEMOKRATİK RESPUBLİKASI MÜNASİBƏTLƏRİ

## 1.Giriş

Azərbaycanın sərhədlərinin ümumi uzunluğu 3359 km, o cümlədən quru sərhədləri 2646 km-dir. Şimalda Rusiyanın Federasiyası ilə 390 km, şimal qərbdə Gürcüstan Respubilkası ilə 480 km, qərbdə Ermənistanla 1007 km, cənubda İran İslam Respubilkası ilə 756 km, cənub-qərbdə Türkiyə ilə 13 km məsafədə həmsərhəddir.

Azərbaycan Respublikası və Gürcüstan arasında sərhədin uzunluğu 480 km-dir. Sərhədin əsas hissəsi Qanıx(Alazan) və Qabırrı(İori) çaylarından, Kür ilə Qabırrı çaylarının suayırıcısından və Candargöldən ibarətdir. İki ölkə arasında quru nəqliyyat və insanların hərəkəti beş sərhəd və gömrük keçid məntəqələri vasitəsilə həyata keçirilir: dörd quru keçid məntəqəsi (Sınıq Körpü, Sadıqlı, Mazımçay, Muğanlı keçid məntəqələri) və bir dəmir yolu keçid məntəqəsi (Böyük kəsik).

Azərbaycan – Gürcüstan münasibətləri qədim tarixə malikdir. Uzun illər boyu Azərbaycan və gürcü siyasi qurumları və dövlətləri eyni regionda mövcud olmuş, ortaq tarixin parçalarını təşkil etmiş, müxtəlif sahələrdə sıx əlaqələr quraraq əməkdaşlıq etmişlər. Bu amillər və ümumi maraqlar dövlət müstəqilliyinin bərpasından sonra Gürcüstanla faydalı qarşılıqlı əməkdaşlığın qurulmasını Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsində başlıca rol oynamışdır.

## 2.Azərbaycan Xalq Cümhuriyyəti – Gürcüstan Demokratik Respublikası arasında diplomatik əlaqələrin qurulması

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası – Gürcüstan münasibətlərinin yaranmasını, inkişaf dinamikasını, xüsusiyyətlərini daha dərindən dərk etmək və qiymətləndirmək üçün iki dövlət arasındakı münasibətlərin tarixinə nəzər salmaq məqsədəuyğun olar. 1918-ci ildən sonrakı tarixi dövrdə iki dövlət arasındakı münasibətlərin altı mərhələsini fərqləndirmək mümkündür: 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 20-dək olan faydalı qarşılıqlı əməkdaşlıq mərhələsi kimi səciyyələndirilə bilən Azərbaycan Xalq Cümhuriyyəti – Gürcüstan Demokratik Respublikası mərhələsi; 1920-ci ilin aprelindən 1921-ci il fevralına qədər olan təzadlı və kəskin mərhələ kimi xarakterizə olunan Azərbaycan SSR – Gürcüstan Demokratik Respublikası münasibətləri mərhələsi; 1921-ci ilin fevralından 1922-ci ilin dekabrına qədər olan dövlətlərin formal müstəqil subyektlər kimi mövcud olduğu, problemlərin danışıqlar yolu ilə həll olunduğu Azərbaycan SSR – Gürcüstan SSR mərhələsi; 1922-ci ilin dekabrından 1991-ci ilin oktyabrına qədər iki dövlətin ittifaq tərkibində müttəfiq respublika kimi iqtisadi və mədəni əməkdaşlığının mövcud olduğu, lakin müstəqil münasibətlərin qurulmasının mümkün olmadığı SSRİ mərhələsi; 1991-ci ilin oktyabrından 1992-ci ilin noyabrına qədər olan müxtəlif problemlər, xüsusilə də Gürcüstanda yaşayan azərbaycanlılara yönəldilmiş ayrı-seçkilik səbəbindən soyuq münasibətlər mərhələsi kimi qəbul edilən dövlətlərin müstəqilliklərinin bərpasından diplomatik münasibətlərin qurulmasına qədər olan mərhələ; diplomatik münasibətlərin qurulduğu 1992-ci il 18 noyabrdan sonrakı mərhələ.

Azərbaycan və Gürcüstan arasında ilk diplomatik-siyasi münasibətlər hər iki dövlətin birinci dəfə dövlət müstəqilliyinin elan edildiyi

XX əsrin əvvəllərində quruldu. Gürcüstanın paytaxtı Tbilisi şəhəri ilə Azərbaycanı çox güclü səbəblər bir-birinə bağlayırdı. Rusiya imperiyası işğaldan sonra bütün Cənubi Qafqazı Tiflisdən idarə edirdi. Bu şəhər Cənubi Qafqazın həm inzibati mərkəzi, həm siyasi, həm də mədəni mərkəzi rolunda çıxış edirdi. Çar Rusiyasının süqutu dövründə Azərbaycan ziyalıları Tiflisdə müstəqillik mübarizəsi aparırdılar. Bu səbəbdən Azərbaycan Xalq Cümhuriyyəti məhz Gürcüstanın paytaxtı Tiflisdə elan edilmişdi.[10] Bu bağlılığı da nəzərə alsaq Gürcüstan Demokratik Respublikası ilə münasibətlərin qurulması böyük önəm daşıyırdı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyunun 16-da Gəncəyə köçdükdən sonra Gürcüstan ilə müntəzəm əlaqələr saxlanılmasını təmin etmək üçün Cumhuriyyətin qurucularından biri, AXC-nin Xarici İşlər Naziri olmuş Məmməd Yusif Cəfərovu AXC-nin bu ölkədəki diplomatik nümayəndəsi təyin etdi.[1] Məmməd Yusif Cəfərov 1918-ci ilin iyunun axırlarından 1919-cu ilin martına qədər bu vəzifəni icra etdi. Daha sonra isə Fariz Vəkilov və Makinski AXC-nin Gürcüstandakı diplomatik nümayəndələri təyin edildilər. Gürcüstanın Azərbaycandakı diplomatik nümayəndəsi isə Nikolay Kartsivadze idi.[4] Batumun Azərbaycan üçün iqtisadi, ticarət əhəmiyyəti, Avropa dövlətləri ilə əlaqələr qurmaq baxımından potensialı nəzərə alınaraq 1918-ci ili noyabrın 10-da Azərbaycanın bu şəhərdə konsulluğu təsis edildi və Mahmud bəy Əfəndiyev konsul təyin edildi.[11]

### 3.Dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi

23 aylıq müstəqillik dövründə Azərbaycan ilə Gürcüstan arasında bir çox sahələrdə münasibətlər qurulmuşdu. İki dövlət arasında ərazi məsələlərində ciddi problemlər var idi. Sirr deyil ki, XIX əsrin əvvəllərində Cənubi Qafqazın çar Rusiyası tərəfindən işğalından sonra Azərbaycan və gürcü xalqları arasında nifaq salmaq məqsədilə ardıcıl inzibati-ərazi islahatları keçirilmişdi. Bu da müstəqilliklərini elan edən iki qonşu xalqın münasibətlərinə təsirsiz ötüşmədi.

Azərbaycan və Gürcüstan Respublikaları arasında təcili həll olunmalı olan bir sıra etnoərazi mübahisələri bu dövlətlər hələ elan edilmədən öncə yaranmışdı. Gürcü ictimai-siyasi xadimi, professor Z.Avalovun xatirələrinə əsasən, Azərbaycan və gürcü nümayəndələri arasında hələ mayın 21-də Zaqafqaziya Federativ Respublikası mövcud olarkən, Batumda sərhədlərin müəyyənləşdirilməsinə dair məsləhətləşmələr aparılmışdı.[8] Belə ki, bu məsləhətləşmələrdə Gürcüstan milli-azadlıq hərəkatının banisi Jordaniyanın başçılıq etdiyi gürcü tərəfi son məqamda əlacsız qalarsa, Zaqatala dairəsindən imtina edə biləcəyini dilə gətirmişdi. Tərəflər razılaşa bilmədiyi üçün həmin görüş nəticəsiz qalmışdı.

Sözügedən görüşdən bir neçə gün sonra Zaqafqaziya Federativ Respublikası dağıldı, hər üç tərəf öz müstəqilliyini elan etdi və dərhal Azərbaycan ilə Gürcüstan arasında Borçalı, Qarayazı, Sığnaq, Zaqatala bölgələrinin, yaxud həmin ərazilərin ayrı-ayrı hissələrinin mənsubluğu ilə bağlı mübahisələr ortaya çıxdı. 1918-ci il iyunun 5-də Gürcüstan hökumətinin iclasında hərbi nazirin "Borçalı qəzasında işlərin vəziyyəti və Gürcüstan dövlətinin dəqiq sərhədlərinin aydınlaşdırılması zərurəti haqqında" məruzəsi dinlənildi. İclasda Borçalı, Sığnaq və Tiflis qəzalarının sərhədlərində silahlı qüvvələrin yerləşdirilməsi haqqında qərar qəbul edildi.[7] Bu qərardan bir neçə gün sonra alman hərbi birləşmələrinin müşayət etdiyi gürcü qoşunları Borçalıya yerləşdirildi.

Azərbaycanın Xarici işlər naziri 22 iyun 1918-ci il tarixli məktubunda təkrar ərazi problemlərinin həlli üçün qarışıq komissiyanın yaradılması təklifini irəli sürdü. Gürcüstan tərəfi isə bu təklifi qəbul etmədi. Vəziyyətin daha da kəskinləşməsinin istəməyən Azərbaycan hökuməti mübahisəni daha da gücləndirməmək üçün beynəlxalq kommissiya yaradılması təklifi üzərində dayanaraq əraziyə Almaniya və Osmanlı nümayəndəliklərinin əzarətinə razılıq verdi. Bu təkliflə həm gürcü tərəfi, həm də Osmanlı və alman nümayəndələri razılaşdılar. Nəticədə Qarayazıda Azərbaycan korpusu dəstəsinin qalması şərti ilə məsələnin beynəlxalq komissiyada müzakirəsinə qərar verildi.[7]

Bütün bu gərginliyə baxmayaraq hər iki dövlət əlaqələrin qurulmasında maraqlı idi. Bir dövlətin siyasi müstəqilliyinin qorunub saxlanılmasının digər dövlətin taleyinə böyük təsiri var idi. Yusif Çəmənzəminli "Xarici siyasəti-

miz" adlı əsərində bu məsələyə xüsusi diqqət ayırmışdı. Böyük Azərbaycan yazıçısı yazırdı: *"Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda Gürcüstan üçün bir qorxu baş versə, axırda xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirsə, o birisi də itirmək məcburiyyətində bulunar".[3]*

Bütün bunlara baxmayaraq Azərbaycan və Gürcüstan uzun müddət Rusiyanın tərkibində vahid iqtisadi məkan olduqlarından dövlət müstəqilliklərinin əldə edilməsindən sonra iqtisadi, maliyyə, nəqliyyat və rabitə sahələrində razılaşmalar, yeni düzənləmələr labüd idi. 1918-ci ilin iyunun 4-də Batumda Azərbaycan, Gürcüstan və Osmanlı nümayəndələri arasında Bakı-Batum ağ neft kəmərinin normal işləməsini təmin etmək haqqında saziş imzalandı.[2] Bu müqavilə Azərbaycan neftinin xarici bazara çıxarılmasını asanlaşdırdı, gənc cumhuriyyətlərin iqtisadiyyatlarının formalaşdırılmasına imkan yaratdı. Həmin gün Azərbaycan, Gürcüstan, Osmanlı və Ermənistan nümayəndələri arasında Cənubi Qafqaz dəmiryoluna aid vaqon-parovoz parkının bölüşdürülməsi haqqında saziş imzalandı. Məlumdur ki, çar Rusiyası dövründə Cənubi Qafqazda olan bütün vaqon-parovoz parkı çar hökumətinə məxsus idi. Bu müqaviləyə əsasən Cənubi Qafqazda olan vaqon-parovoz parkı hər üç dövlətin ərazilərindən keçən dəmir yollarının uzunluqlarına müvafiq olaraq bölüşdürülməli idi. Bu müqavilə və sazişlər dövlətlərarası münasibətlərin diplomatik yolla nizama salınmasının başlanğıcını qoydu.

Yeni yaranmış cumhuriyyətin həll etməli olduğu məsələlərdən bəlkə də ən vacibi maliyyə-pul sisteminin nizama salınması idi. Həmin dövrdə Azərbaycan ərazisində çar rublu, Müvəqqəti hökumətin pul nişanı olan kerenki, Cənubi Qafqaz Komissarlığı bonu və Bakı bonu istifadə edilirdi. Dövriyyədə pul qıtlığı mövcud idi. 1918-ci ilin əvvəlində dövriyyəyə buraxılan Bakı bonu Azərbaycanın ehtiyaclarını ödəmirdi. Belə böhran şəraitində Azərbaycan hökumətinə xəbər verilmədən, 200 milyon Cənubi Qafqaz Komissarlığı bonu buraxılması haqqında müqavilə imzalandı və Rusiya Dövlət Bankının Tiflis kontoru tərəfindən buraxılmış əskinazlar Gürcüstan və Ermənistan arasında bölüşdürüldü. Bu, Azərbaycan hökumətinin kəskin narazılığına səbəb oldu. Azərbaycanı kənarda qoyaraq atılan bu addım səmərə vermədi. Çünki dövlətlər arasında gömrük, sərhəd məsələləri hələ öz həllini tapmamışdı. Ölkələrin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün Cənubi Qafqazda yerləşən hər üç dövlət arasında razılaşdırılmış maliyyə-pul siyasətinin aparılması mütləq idi. 1918-ci il sentyabrın 6-da Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri maliyyə və pul-kredit əməliyyatları üçün birlikdə 280 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması barədə saziş imzaladılar. Həmin ilin noyabrın 15-də Tiflisdə Azərbaycan və Gürcüstan arasında əlavə 160 milyon Zaqafqaziya bonu buraxılması haqqında saziş imzalandı.[4] AXC-nin apardığı uğurlu maliyyə siyasəti öz sözünü dedi, Cənubi Qafqaz və Bakı bonunun inflyasiyasının qarşısı alındı və maliyyə bazarında mövqeyi möhkəmləndi.

1918-ci il dekabrın 26-da Azərbaycan və Gürcüstan arasında əmtəə mübadiləsi haqqında müqavilə imzalandı. Bu sazişə əsasən tərəflər arasında dəmiryolu ilə daşınan yüklər üçün azad tranzitə icazə verilirdi. [6] Azərbaycan hökuməti tərəfindən Behbud xan Cavanşir və Gürcüstan hökuməti adından Nikolay Karçivadze tərəfindən imzalanan, 19 maddədən ibarət olan müqaviləyə əsasən kütləvi istehlak mallarının gömrük rüsumu alınmadan daşınması nəzərdə tutulurdu. Müqavilənin 1-ci maddəsində dəmiryolu ilə yüklərin hər iki istiqamətdə rüsumsuz daşınması, 2-ci maddəsində Azərbaycandan neft və neft məhsulları, Gürcüstandan isə kömür və meşə-ağac materiallarının maneəsiz keçirilməsinə razılıq verilirdi. Müqavilənin 6-cı və 8-ci maddələrinə görə, Gürcüstan tərəfi Azərbaycana taxıl və taxıl məhsulları, şəkər, gön-dəri məhsulundan başqa digər mal və məhsulların rüsumsuz keçirilməsinə razılıq verilmişdi. Bu müqavilə hər iki dövlətin maraqlarına uyğun idi və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edirdi.

1920-ci ili fevralın 5-də Bakıda Azərbaycan və Gürcüstan arasında tranzit müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən tərəflər hər iki ölkə arasında tranzit yüklərin dəniz yolu ilə bir il müddətlik sərbəst olaraq, yəni heç bir gömrük rüsumu ödənmədən daşınmasını təmin etməyi öhdələrinə götürdülər. [6] Azərbaycan

tərəfindən Ticarət, Sənaye və Ərzaq naziri M.Hacınski və Yollar naziri X.Məlik-Aslanov, Gürcüstanın Azərbaycan hökuməti yanında diplomatik nümayəndəsi G.Alşibaya arasında imzalamış müqavilə əsasən Gürcüstana neft və neft məhsullarının münasib qiymətlərlə və sadələşdirilmiş qaydalarla daşınması xidmət edirdi.

Hərbi sahədə qurulan münasibətlər mühüm əhəmiyyət daşıyırdı. 1919-cu ilin iyunun 16-da Tiflisdə imzalanmış qarşılıqlı müdafiə haqqında sənəd iki ölkə arasındakı diplomatik münasibətlərin möhkəmlənməsindən xəbər verir.[7] Azərbaycan tərəfindən xarici işlər naziri Məmməd Yusif Cəfərov, hərbi nazir Səməd bəy Mehmandarov, baş qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviç, Gürcüstan tərəfindən xarici işlər naziri Y.P.Gegeçkori, hərbi nazir N.Ramişvili, hərbi nazirin müavini general-mayor Gedevanov və general Odişelidze tərəfindən imzalanmış, 3 il müddəti üçün nəzərdə tutulan bu müqaviləyə əsasən, ölkələr onlardan birinin və ya hər ikisinin müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir təcavüzə qarşı sahib olduqları bütün silahlı qüvvələr və hərbi vasitələrlə birgə çıxış etməyi öhdələrinə götürürdülər. Bu sənəd əsasında iki ölkə arasında hərbi-texniki saziş də imzalanmışdı. Bu razılaşma Azərbaycan Milli Ordusunun texniki və kadr potensialının artırılmasına öz töhfəsini verdi. Xalq Cümhuriyyətinin Gürcüstana göndərdiyi 1 milyon pud neft, 20 milyon pud neft məhsulları müqabilində Tiflisdən ölkəmizə 12 yüngül, 12 dağ topu, 24 maksim pulemyotu, 3 min tüfəng və s. hərbi ləvazimat göndərildi. Hərbi hazırlıq cəhətdən azərbaycanlılardan xeyli təcrübəli olan gürcü zabitləri milli kadrların hazırlanmasına cəlb edildilər.

**4. Nəticə**

Ümumilikdə, 1918-1920-ci illər arası Azərbaycan-Gürcüstan münasibətləri yüksələn xətlə inkişaf etmişdi. Yuxarıda da qeyd edildiyi kimi ilk dövrlərdə Borçalı məsələsinə görə ölkələr arasındakı münasibət kəskinləşsə də, tərəflər razılığa gələrək faydalı qarşılıqlı münasibətlərin qurulmasına nail olmuşdular. Strateji cəhətdən Azərbaycan və Gürcüstanın maraqları üst-üstə düşürdü. Münasibətlərin yüksək səviyyədə qurulmasının labüd edən səbəblər çox idi. Birincisi, elə o dövrdə də Gürcüstan Azərbaycanın neft və neft məhsullarına tələbat duyurdu. İkincisi, Azərbaycan üçün Gürcüstan tranzit ölkə olması baxımından böyük əhəmiyyət daşıyırdı. Çünki Azərbaycan iqtisadi inkişafını təmin edən neft və neft məhsulları Bakı-Batum ağ neft kəməri və dəmiryol vasitəsilə Gürcüstan ərazisindən nəql edilirdi. Üçüncüsü, Cənubi Qafqazda sülhə nail olmaq və xarici müdaxilələrin qarşısını almaq üçün müttəfiqlik şərt idi. Dördüncüsü, təxminən 100 il davam etmiş çar Rusiyasının əsarətindən sonra yeni qurulmuş Cənubi Qafqaz dövlətlərinin iqtisadiyyatı, maliyyə-pul, nəqliyyat və digər sistemləri bir-birinə bağlı idi və bu bağları qısa müddət ərzində qoparıb atmaq, təkbaşına hərəkət etmək mümkün deyildi.

**Ədəbiyyat**


1. Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920) Bakı: "Gənclik mərkəzi", 1996, 96 s.
2. Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2 cilddə, I cild, Bakı "Lider Nəşriyyat", 2004, 440 s.
3. Çəmənzəminli, Y.V. Xarici siyasətimiz / . Y. Çəmənzəminli. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993 51 s. s.38
4. Əliyev, Q. Azərbaycan Xalq Cumhuriyyətinin Gürcüstanla əməkdaşlığı (1918-1920-ci illər) http://files.preslib.az/projects/axc/meqaleler.pdf
5. Qasımlı, M. Xarici dövlətlər və Azərbaycan / M.Qasımlı. Bakı: "Qanun" nəşriyyatı, 1998. 360 s.
6. Quliyev, R. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi.(Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920)), Bakı: "Turxan", 2015, 360 s.
7. Nəsib Nəsibzadə, Azərbaycanın xarici siyasəti (1918-1920), Bakı:1996, Ay-ulduz nəşriyyatı, 304 s.
8. Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri, Bakı: 2008, Aspoliqraf, 376 s.
9. Şamıoğlu, Ş.Borçalıda etnik proseslər və millətlərarası münasibətlər / Ş.Şamıoğlu. Bakı: Azərbaycan, 1997. 200 s.

10. Habibbayli, S. Tarihten günümüze Borçalı bölgesine Ermeni iddiaları ve bölgenin Türk (Azerbaycanlı) ahalisi. Ermeni Araştırmaları Dergisi, 2020, №67, s. 115-136

11. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов). Баку: "Азербайджан", 1998. - 560 с.

**Резюме**

**Самира Габиббейли**

**Взаимоотношения между Азербайджанской Демократической Республикой и Грузинской Демократической Республикой**

Взаимоотношения Азербайджана и Грузии имеют глубокие исторические корни. В исторический период после 1918 года можно выделить шесть этапов отношений между двумя государствами. Среди этих этапов особый вклад в историческое развитие двух государств и отношений между ними внес период с 28 мая 1918 года до 20 апреля 1920 года, который характеризовался как этап взаимовыгодного взаимного сотрудничества. Этот период имел особое значение в отношениях между Азербайджанской Демократической Республикой с Грузинской Демократической Республикой, в целом азербайджано-грузинские отношения развивались по восходящей линии. Несмотря на то, что в первые дни в взаимоотношениях были некоторые недопонимания из-за проблем с Борчали, оба государства выбрали конструктивную позицию, и положительная динамика двусторонних взаимоотношений сохранилась.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, Грузинская Демократическая Республика, дипломатические отношения, финансовая и денежная системы, военное сотрудничество.*

**Summary**

**Samira Habibbayli**

**Democratic Republic of Azerbaijan – Democratic Republic of Georgia relations**

Azerbaijan-Georgia relations have deep historical roots. In the historical period after 1918, it is possible to distinguish six stages of relations between the two states. Among these stages, Democratic Republic of Azerbaijan – Democratic Republic of Georgia stage from May 28, 1918 to April 20, 1920, characterized as a stage of beneficial mutual cooperation, which made a special contribution to the historical development of the two states and the relations between them, is particularly important.

In general, between 1918 and 1920, Azerbaijan-Georgia relations developed in an upward direction. As mentioned above, despite the fact that there were some misunderstandings in the relations due to the Borchali issue in the early days, the states chose a constructive position, and the positive dynamics of bilateral relations were preserved.

***Keywords:*** *Democratic Republic of Azerbaijan, Democratic Republic of Georgia, diplomatic relations, financial and monetary systems, military cooperation*